# Gəncə Qızılbaş və Osmanlı imperatorluğu dövründə



Elşən Mirişli

Gəncə şəhəri, tarixçi

*Ailəsi sarıdan arxayın olmaq üçün Həmzə Mirzə iki azyaşlı oğlunu Gəncə yaxınlığında İsimxan Şamlının və Əliqulu xanın himayəsinə qoydu.Gəncə bəylərbəyi İmamqulu xan güclü qoşunla şəhərin yaxınlığında şahın düşərgəsinə gəldi.Şahzadə qoşunun güclü olmasına baxmayaraq Təbrizi tutmuş Osmanlı Türklərinə qarşı hər hansı bir hərəkəti eytiyatsızlıq saydı. Şah da qoşunla bərabər Qəzvunə qayıtdı.*

*Qızılbaşlar Xudabəndə şahın vaxtında qərbdə osmanlılarla,şərqdə özbəklərlə daimi savaşlardan zəifləmişdilər.Osmanlı Türklərinin Qızılbaş Türklərinə zərbələri xüsusən ağır idi.Qızılbaşlar hər dəfə uğursuzluğa uğrayıb vilayətlərini itirirdilər.Beləcə,təxminən bütün Zaqafqaziya və Dağıstan osmanlıların əlinə keçdi.Qərbi Avropa və Rusiya ilə nizama düşmüş ticarət dayandı.Bu da ölkəni müvəqqəti iqtisadi tənəzzülə uğratdı.*

Feodal əyanları təqsirin hamısını zəif Xudabəndədə görüb üsyan qaldırdılar.Bəzi məlumatlara görə Gəncədə Xudabəndənin arvadı öldürüldü.Həmzə Mirzə Gəncədən azca aralıda yaxalanıb öldürüldü, şah Məhəmməd Xudabəndənin özünü isə taxt-tacdan əl çəkməyə məcbur etdilər.

## I Şah Abbas və onun Gəncəni ələ keçirməsi

Şamlı və ustaclı tayfalarının başçıları taxt-tacı Xudabəndənin oğlu I Abbasa verdilər.Çalışqan,fəal və zirək Abbas bütün hakimiyyəti öz əlinə aldı.O,hərbi islahat keçirdi:yığma qoşunlardan əlavə qorçuların və qulamların sayını artıraraq iri daimi ordu yaratdı.Azərbaycana şah Abbas böyük siyasi əhəmiyyət verirdi.Osmanlı İmperatorluğu savaş aparmaq üçün Şah Abbas Moskva çarı I Fyodr İvanoviçdən (1584-1598) Ruriklərin sonuncu nümayəndəsindən kömək istədi,lakin onun başı İsveç və Polşa ilə müharibəyə qarışdığından kömək etmədi.

*1588-ci ildə osmalı sərkərdəsi Fərhad paşa Azərbaycanın ələ keçirilməsini başa çatdırmaq məqsədiləyenə də şimala doğru irəlilədi.O,Naxçıvanı,Şəkini,Şamaxını və Dərbəndi tutdu.Qızılbaş Dövlətində Rusiya səfiri Qriqori Vasilçikov yazırdı ki,qlzılbaşların ən yaxşı şəhərləri indi Osmanlı imperatorluğunundur.*

Gəncənin işğalı xüsusi əhəmiyyət kəsb edirdi. Bu barədə Fərhad paşa III Muraddan xüsusi sərəncam almışdı. O,1588-ci ildə şəhəri tutur. Gəncəyə sahib olan Fərhad paşa III Muradın əmri ilə şəhəri möhkəmləndirmək məqsədi ilə köhnə qaladan 7-8 km aralı təzə qala tikdirdi, orada çoxlu döyüşçü qoyub geri qayıtdı.

Osmanlı ordusuna cavab verməyə hələ gücü çatmayan Şah Abbas sülh danışıqlarına başladı.Bu vaxt da Qarabağ bəylərbəyi Məhəmməd xan Ziyadoğlu Qacar bəylərbəyliyinin mərkəzi Gəncəni geri aldı.Bunu eşidən Cəfər paşa Şah Abbasa etirazını bildirdi ki, bu hərəkət Qızılbaş Dövləti ilə Osmanlı İmperatorluğu arasında gedən sülh danışıqlarının qaydalarını pozur.

Şah Abbas Məhəmməd xana əmr göndərdi ki, Gəncəni rahat buraxsın,lakin o,bu əmrə tabe olmadı.İkinci əmrdən sonra o, geri çəkildi.Qoşunu buraxıb gürcü çarı Aleksandrın yanına qaçdı,amma çar onu Osmanlı türklərinə təslim etdi.Osmanlı əsgərləri onu İstanbula göndərdilər.O,burada sülh müqaviləsi bağlanınca qaldı.

1590-cı il 21 martda Stanbulda Qızılbaş Dövləti və Osmanlı İmperatorluğu arasında sülh müqaviləsi bağlandı.Bu müqaviləyə görə Gəncə,Qarabağ,Gürcüstan,Luristan və sairə Osmanlı İmperatorluğuna verildi .Gəncə rəsmən Osmanlı imperatorluğu torpağı oldu.

Lakin Şah Abbas osmanlılarla müharibəyə hazırlaşmaqda idi.Yaratdığı nizami ordunu topla təchiz etdi.O,çar Fyodr İvanoviçin yanına bahalı hədiyyələrlə öz qasidi Əndi bəyi göndərdi.

*1603-cü ildə Şah Abbas hücum edib Təbriz və Naxçıvanı tutdu.Oradan Əmirgün xanı (Çuxursəd və İrəvanın gələcək bəylərbəyi) güclü qoşunla Gəncəni tutmağa göndərdi.Xan həmçinin osmanlı ordusunun irəliləməsinə mane olmalı idi.Gəncə ətrafında Əmirgün xanın ordusu osmanlılara ağır zərbə vurdu.Çox adam öldürüldü,çox adam əsir düşdü.Amma Gəncəni ala bilmədilər.*

Onda Şah Abbas bütün gücünü İrəvan qalasını tutmağa cəmlədi (1604-cü il).Şah Qarabağ və Gəncə paşası Davuda qarşı Hüseyn xanZiyadoğlu Qacarı göndərdi ki,o, mühasirədə olan İrəvana kömək eləyə bilməsin.Uzun çəkən mühasirədən sonra 1605-ci ildə İrəvan ələ keçirildi.Qalırdı yalnız Gəncə!Şah Abbasın fikrincə Gəncə ən əsas nöqtə idi.O,Gəncəni "Şamaxının açarı" adlandırırdı.Ona görə də İrəvanı alandan sonra şah sərkərdə Allahverdi xan başda olmaqla 15 minlik qoşunu Gəncəni almağa göndərdi.Əmrə görə şəhər mühasirəsiz alınmalı idi.Davud paşa şah ordusu ilə döyüşə girdi,lakin uğursuzluğa uğrayıb geriyə,qalaya qayıtdı.Yolüstü Allahverdi xan Qarabağda çoxlu əsir və öldürdüyü adamların başını götürüb şahın yanına qayıtdı.

*Şamlı və ustaclı tayfalarının başçıları taxt-tacı Xudabəndənin oğlu I Abbasa verdilər.Çalışqan,fəal və zirək Abbas bütün hakimiyyəti öz əlinə aldı.O,hərbi islahat keçirdi:yığma qoşunlardan əlavə qorçuların və qulamların sayını artıraraq iri daimi ordu yaratdı.Azərbaycana şah Abbas böyük siyasi əhəmiyyət verirdi.Osmanlı İmperatorluğu savaş aparmaq üçün Şah Abbas Moskva çarı I Fyodr İvanoviçdən (1584-1598) Ruriklərin sonuncu nümayəndəsindən kömək istədi,lakin onun başı İsveç və Polşa ilə müharibəyə qarışdığından kömək etmədi*



1606-cı ildə Şah Abbas böyük qoşunla özü Gəncəni almağa getdi.Şah osmanlılara məsləhət gördü ki,sağlam düşüncəyə arxalansınlar,müqavimət göstərmək yersizdir,çünki kömək gələsi yollar bağlanmışdır.Gəncənin qoşun başçısı Əhməd Əmin paşa şahın təklifini cavabsız buraxdı.Onda Şah Abbas Gəncəyə yaxınlaşıb Nizami məqbərəsi yaxınlığında qalanın mühasirəsinə hazırlaşmağa başladı.Silah rəisi Qənbər bəyə əmr olundu ki,darvazalarla üzbəüz qala müdafiəçilərinin atəşlərinə cavab vermək üçün səngərlər qazılsın.Barxudar bəyə topların tökülməsi,Gərçakay bəyə mühasirə üçün ətrafın öyrənilməsi tapşırıldı.Birinci üç ay cüzi toqquşmalarla keçdi.Bu müddət ərzində şahın orduları qala divarının dibində 500 zərlik səngər qazdılar.Sonra ora alov buraxıldı.Yanğın nəticəsində divarlar dağıldı və deşiklər əmələ gəldi.Ordu həm də qalanın şərq tərəfində yerləşdi. Beləliklə,osmanlılar hər tərəfdən mühasirədə qaldılar.Onlar hər vasitə ilə müdafiə olunurdular : düşmənlərinin başına qaynar qətran,yanar neft tökürdülər.Şah ordusunda çoxlarının saçı,saqqalı yandı,lakin bu onları dayandırmadı.Onların topları şəhərin divarlarını dağıdırdı.Bir gün çəkən şiddətli döyüşdən sonra qızılbaş döyüşçüləri qalanın ən hündür və möhkəmləndirilmiş qülləsini –Çardağı aldılar.Sonradan üç qüllə də alındı.Mühasirədəkilər aman dilədilər.Şah məhəl qoymayıb hücumu davam etdirdi.Axırıncı iki qüllə də alınandan sonra osmanlılar təslim olmağa razılaşdılar.Qala açarları Gərçakay bəyə verildi.Gəncənin osmanlı qoşununun rəisi 2500 əsgərlə şəhərdən buraxıldı,lakin şəhərdən aralanmağa macal tapmamış qızılbaşlar tərəfindən öldürüldülər.

I Şah Abbas Gəncəni belə tutdu.Şəhərə hökmdar Axsaq Məhəmməd xan təyin olundu (o,qacarlardan idi).Şah özü isə hələ osmanlıların əlində olan Loru,Tiflisi və Gürcüstanın başqa qalalarını azad etməyə yönəldi.

*Osmanlılar hər tərəfdən mühasirədə qaldılar.Onlar hər vasitə ilə müdafiə olunurdular : düşmənlərinin başına qaynar qətran,yanar neft tökürdülər.Şah ordusunda çoxlarının saçı,saqqalı yandı,lakin bu onları dayandırmadı.Onların topları şəhərin divarlarını dağıdırdı.Bir gün çəkən şiddətli döyüşdən sonra qızılbaş döyüşçüləri qalanın ən hündür və möhkəmləndirilmiş qülləsini –Çardağı aldılar.Sonradan üç qüllə də alındı.Mühasirədəkilər aman dilədilər.Şah məhəl qoymayıb hücumu davam etdirdi.Axırıncı iki qüllə də alınandan sonra osmanlılar təslim olmağa razılaşdılar.Qala açarları Gərçakay bəyə verildi.Gəncənin osmanlı qoşununun rəisi 2500 əsgərlə şəhərdən buraxıldı, lakin şəhərdən aralanmağa macal tapmamış qızılbaşlar tərəfindən öldürüldülər*

## Gəncənin indiki Gəncənin yerinə köçürülməsi

Tarixçilərin məlumatına görə, bu köçürülmə I Şah Abbasın adı ilə bağlıdır.Şahın əmri ilə gəncəlilər köhnə yerlərindən xeyli əhalisi olan,1588-ci ildə sərkərdə Fərhad paşanın qala tikdirdiyi əraziyə köçürüldülər.

*Köhnə Gəncənin təzə yerə köçürülməsi vaxtı hələ dəqiqləşdirilməyib.Gələcəkdə arxeoloji qazıntılar da bu işə kömək edə bilər.Amma çox güman ki,Gəncə öz yeni sahəsində XVII əsrdən mövcuddur.*

*Şah Abbas təzə şəhəri bərpa etdi,bəzədi.İndiyə qədər də şəhərin mərkəzində məşhur Şah Abbas məscidinin minarələri durur.Karvansara da,o dövrün hamamı da şəhərin bəzəyidir.Şah Abbas şəhəri-Abbasabad adlandırdı.Lakin əhali şəhərin qədim adını-"Gəncə" adını üstün tutdu.*